*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (4) 2025*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:22.03.2025*
*Kabul tarihi |Accepted:23.06.2025*
*Yayın tarihi |Published:25.08.2025*

**Aygun Aliyeva**

***https://orcid.org/0000-0003-1614-1062***
*Lecturer, Baku State University, The faculty of İnformation and document management, Azerbaijan, ay_gun20@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Aliyeva, A. (2025). İnformasiya Cəmiyyətində Kitabxanaçılıgın İnkişafı üçün Davamlı Təhsil Sistemi. *Akademik Tarih ve Düşünce Dergisi*, *12* (4), 310-319.

# İnformasiya Cəmiyyətində Kitabxanaçılıgın İnkişafı üçün Davamlı Təhsil Sistemi

***Xülasə***

*Kitabxana infrastrukturunda mürəkkəbləşən müasir tendensiyalar: informasiya və telekommunikasiya texnologiyasının kitabxanalarda istifadəsi, internetin tətbiqi yeni şəraitdə şüurlu şəkildə işləyə biləcək kitabxana-informasiya mütəxəssislərinin olmasını zəruri edir. Məqalədə kitabxana-informasiya mütəxəssislərinin fasiləsiz təhsil prosesinin iştirakçısı kimi cəmiyyətdə yeni ideyalara yiyələnərək, bilik bacarıq və vərdişlərini təkmilləşdirmək imkanından və bu istiqamədə görülən işlərdən bəhs edilir. Peşəkar kitabxanaçı kadrların fasiləsiz təhsilinin təşkilində metodik mərkəz kimi fəaliyyət göstərən M. F. Axundov adına Respublika Milli Kitabxanasının iş təcrübəsindən, fasiləsiz təhsil sistemində kitabxana işçiləri üçün təşkil edilən ixtisasartırma kurslarının əhəmiyyətindən söhbət açılır. Eyni zamanda kitabxana informasiya mütəxəssislərinin təhsilində tədris proqram və planlarınn (BDU-nun «İnformasiya və sənəd menecmenti» fakültəsinin tədris planı) təkmilləşdirilməsinin əhəmiyyəti qeyd edilir, metodik mərkəzlərin ixitisasartırma proseslərindəki fəaliyyəti, mütəxəssislərin təhsil prosesinin mərhələ və pillələri və şəxsi təhsil haqqında məlumat verilir.*

***Açar sözlər:*** *Fasiləsiz Təhsil, Peşə Təhsili, İxtisasartırma, Şəxsi Təhsil, Təhsilin Pillələri, Metodiki Mərkəzlər*

BY NC
Creative Commons Licence

# Continuing Education System for the Development of Librarianship in the Information Society

***Abstract***

*Increasingly complex modern trends in library infrastructure: The use of information and telecommunications technologies in libraries and the use of the Internet have created a need for library and information specialists who can work consciously under new conditions. The article discusses the opportunities for library and information specialists, as participants in the continuous education process, to acquire new ideas in society, develop their knowledge, skills, and habits, and the efforts made in this direction. The article discusses the importance of advanced training courses organised for library staff in the continuous education system, as well as the work experience of the M.F. Akhundov Republican National Library, which acts as a methodological centre in the organisation of continuous education for professional librarians. Additionally, the importance of improving curricula and plans (BSU 'Information and Document Management' faculty curriculum) in the education of library and information specialists is emphasised, and information is provided on the activities of methodological centres in professional development processes, the stages and steps of the education process for specialists, and personal education.*

***Keywords:*** *Continuing Education, Professional Education, Advanced Education, Personal Education, Education Levels, Methodological Centres*

## Giriş

İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə əlaqədar biliklərin əsasını təşkil edən məlumatlar sürətlə təkmilləşir və yeniləri ilə əvəz olunur. Belə bir şəraitdə bir dəfə təhsil almaqla ömürboyu bacarıqlı mütəxəssis kimi çalışmaq mümkün deyil. Ona görə də hər bir mütəxəssis daim öz biliklərini artırmağı, yenilikləri çevik şəkildə mənimsəməyi, informasiya tələbatını ödəməyi, özünü təkmilləşdirməyi bacarmalıdır (Aliyeva, 2023). Cəmiyyət həyatında baş verən iqtisadi-siyasi, sosial dəyişikliklər cəmiyyət üzvlərinin daim olaraq dəyişən təkmilləşən informasiya tələbatını ödəmək məqsədini daşıyan kitabxana-informasiya mütəxəssislərinin qarşısına da yeni tələblər qoyur (Rashad & Parviz, 2023). Kitabxana-informasiya mütəxəssislərinin fasiləsiz təhsil sistemində fəaliyyətin genişləndirilməsi xüsusi əhəmiyyət kəsb edir və aşağıdakı mərhələ və pillələrə bölünür:

- Orta ixtisas təhsili;
- Ali ixtisas təhsili: bakalavr, magistr, doktorantura;
- İxtisasartırma və kadrların yenidən hazırlanması;
- Şəxsi təhsil.

Müasir kitabxananın fəaliyyəti kadr tərkibindən, onların hazırlıq səviyyəsindən asılıdır. Səriştəli, yüksək potensiala malik kitabxana-informasiya mütəxəssisinin mövcudluğu istifadəçi məmnunluğunun əsas şərtidir (Oqlu & Qurbanov, 2021). Azərbaycanda kitabxanaçı kadrların hazırlanmasına XX əsrin 20-ci illərindən başlanılmışdır. Bu iş öncələr mədəni-maarif təhsili sistemindəki kitabxanaçılıq kurslarında həyata keçirilmişdir. 1938-ci ildən N.K.Krupskaya adına Bakı Kitabxanaçılıq Texnikumunda (Bakı Mədəni-Maarif texnikumunda, hazırki Humanitar Kollecdə), Naxçıvan Musiqi Kollecində (1974), Şuşa Mədəni-Maarif Texnikumunda (1976) (indiki - Şuşa Humanitar Kolleci), orta ixtisas, 1947-ci ildən etibarən isə Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) ali təhsilli kitabxanaçı kadrların hazırlanmasına başlanılmışdır. 1947/1948-ci tədris ilində Bakı Dövlət Universitetinin Filologiya fakültəsi nəzdində yüksək ixtisaslı kitabxanaçı kadrlar hazırlayan Kitabxanaçılıq şöbəsinin təşkil edilməsi və onun gələcəkdə ayrıca fakültəyə çevrilməsi qərara alınmışdı. Qeyd edək ki, SSRİ-də ilk universitet kitabxanaçılıq təhsili məhz Bakı Dövlət Universitetində təşkil edilmişdir.

Kitabxanaçılıq şöbəsi 1947-ci ildən 1958-ci ilədək Filologiya fakültəsinin, 1958-ci ildən 1962-ci ilədək Şərqşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərdi. 1962-ci il oktyabr ayının 1-dən universitetdə Kitabxanaçılıq fakültəsi təşkil olundu (Xələfov, 2019). Kitabxana işində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin daha geniş imkanlara malik olduğu nəzərə alınaraq, 2003-cü ildə fakültənin adının dəyişdirilməsi və "Kitabxanaçılıq-informasiya fakültəsi" qoyulması təşəbbüsü irəli sürüldü. 2023-cü il BDU-nun Elmi Şurasının qərarı ilə fakültənin adı dəyişdirilərək «İnformasiya və sənəd menecmenti» adlandırılmışdır. Fakültənin bakalavriatura səviyyəsində Azərbaycan, ingilis və rus bölmələri fəaliyyət göstərir. Kitabxana-informasiya mütəxəssislərinin hazırlanması prosesi formal, qeyri-formal olaraq, əyani, qiyabi və distant formada reallaşdırılır. Dünyanın müxtəlif ölkələrinin ali məktəblərində hazırlanan kitabxanaçı kadrlar kəmiyyət və keyfiyyət baxımından bir-birindən fərqlənsələr də onları birləşdirən əsas xüsusiyyət tədris olunan peşə ixtisasyönümlü fənn bloklarının məzmunca yaxınlığıdır. Tədris planları bir-birindən fərqlənsə də, onların əsas məqsədi yüksək ixtisaslı mütəxəssis kadrlar hazırlamaqdır.

Azərbaycanda kitabxanaçılıq təhsilinin formalaşmasında xüsusi xidmətləri olan professor A. Xələfovun qeyd etdiyi kimi "Yüksək ixtisaslı kadrların hazırlanması tədris prosesinin planauyğun, ardıcıl və məqsədyönlü təşkilindən asılıdır. Bilavasitə kadr hazırlığının strategiyası hesab edilən tədris planlarının dövrün tələblərinə, elmi tərəqqinin səviyyəsinə, elmi proqnozlar

əsasında bu və ya digər elmi inkişaf perspektivlərinə əsaslanaraq tərtib edilməlidir” (Hacıyeva, 2016, s. 92-94). Kitabxanaçılıq təhsili üzrə tədris plan və proqramları gündəlik kitabxana təcrübəsi ilə ayaqlaşan, gələcək mütəxəssislərə öz ixtisası üzrə informasiya əsrinə uyğun peşə biliklərini aşılamaq üçün geniş imkanlar açan vasitə olmalıdır. Bu baxımdan ali kitabxanaçılıq təhsili verən BDU-nun «İnformasiya və sənəd menecmenti» fakültəsinin tədris plan və proqramına cəmiyyətin inkişaf qanunauyğunluqlarına müvafiq olaraq texnoloji fənnlərin daxil edilməsi ali təhsilli kitabxanaçı kadrların fasiləsiz təhsil prosesinin təşkilində əhəmiyyətli yer tutur. Tədris olunan fənnlər içərisində «Kitabxanalarda informasiya texnologiyalarının tətbiqi», «VBİS», «Web proqramlaşdırma», «Kompüter şəbəkələri», «Elektron kitabxana», «İnformasiya sistemləri» və digər fənnlər tələbələrə yeni texnologiyanı, innovasiyanı mənimsəmək, texnoloji vərdişlərə yiyələnməkdə koməklik edir. Fasiləsiz təhsil kitabxanaçılıq peşəsində rəqabət qabiliyyətini qorumaq və müasir dövrün tələblərinə uyğunlaşmaq üçün zəruridir. Bu sahədə çalışan şəxslər daim yeni biliklər əldə edərək kitabxana xidmətlərini daha səmərəli və innovativ şəkildə təşkil edə bilərlər. Kitabxana-informasiya mütəxəssisləri fasiləsiz peşə təhsili prosesində bir sıra üstünlüklərə malikdirlər:

•Kitabxanaçının bilik və bacarıqlarını daim yeniləməsi;

• Müasir informasiya texnologiyalarına uyğunlaşma;

•Oxuculara daha keyfiyyətli xidmət göstərmək;

•Kitabxana menecmenti və innovativ metodlarla işləmə bacarığının artırılması;

•Karyera imkanlarının genişlənməsi.

Respublikamızda kitabxanaçı peşəsi üzrə fasiləsiz təhsil aşağıdakı prinsiplər əsasında aparılmalıdır:

*Peşəkar fəaliyyətdə innovativ biliklərin prioritet istiqamət kimi qəbul edilməsi;

*Peşəkar kadr hazırlığında istifadə olunan tədris planları və proqramlarının modifikasiya olunması;

*Sosial açıqlığının olması: kitabxanaçılıq peşəsi cəmiyyətin bütün sahələrini əhatə edən elmi biliklərlə sıx əlaqədədir;

*Fərdi təhsil;

*Demokratiklik prinsipinin qorunması.

Dünya təcrübəsi sübut edir ki, inikişaf etmiş ölkələrdə kitabxanaçıların fasiləsiz təhsil sisteminin və bu peşənin daha dərindən öyrənilməsinin böyük çəkisi fasiləsiz təhsil sisteminin ixtisasartırma mərhələsinin üzərinə düşür. Bu məqsədlə Avropa ölkələrində, ABŞ-da, Rusiyada və b. ölkələrdə iri elmi kitabxanaların bazasında kitabxana işinə dair menecment, treninq, digər

kitabxanaçılıq təhsili mərkəzləri yaranır və bu da fasiləsiz təhsil sistemində mühüm əhəmiyyətə malikdir. Azərbaycanda kitabxanaçılıq peşəsi üzrə ixtisasartırma kurslarının təşkili XX əsrin 60-cı illərindən başlasa da, müasir dövrə kimi davam edir. İxtisasartırma kursları fasiləsiz kitabxanaçılıq təhsilində böyük əhəmiyyətə malikdir. Respublikamızda kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində metodik mərkəzlərin danılmaz əməyi vardır. Metodik mərkəzlər dedikdə respublikamızda mövcud olan, fəaliyyət göstərən, metodiki baza funksiyasını yerinə yetirən kitabxanalar nəzərdə tutulur. Kitabxanaçı kadrların fasiləsiz təhsilinin təşkilində M. F. Axundov adına Respublika Milli Kitabxanasının iş təcrübəsi maraq doğurur. Metodik mərkəz kimi fəaliyyət göstərən kitabxana qabaqcıl təcrübəni öyrənərək yeni ideyalar əldə edir və yerlərdə tətbiqini həyata keçirir. Metodiki baza kimi kitabxananın həyata keçirdiyi ən böyük işlərdən də biri kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində mütəxəssislərə ixtisasartırma kurslarının təşkilidir.

Kitabxanada kadrların fasiləsiz təhsilini təşkil etmək məqsədilə mərkəzlər yaradılır və bir sıra xarici ölkələrə ezamiyyələr təşkil olunur. Kitabxanaçı kadrlar bu kurslarda iştirak edərək yeni texniki vərdişlərə yiyələnir, idarəçiliyin yeni forma və metodlarını, kitabxanalara əlavə maliyyə mənbələrinin tapılması, rəqəmsal informasiya ehtiyatları bazasının yaradılması və digər məsələləri dərindən öyrənərək modernləşdirmə prosesinin iştirakçılarına çevrilirlər. Kursları başa vuran kitabxana işçiləri beynəlxalq sertifikat alaraq çalışdıqları müəssisədə trener kitabxanaçı olaraq fəaliyyətlərini davam etdirir və kitabxanaların modernləşdirilməsində yaxından iştirak edirlər. Təbii ki, bu bu prosesin effektiv həyata keçirilməsi kitabxanaçı kadrların peşəkarlığından, kitabxanaçı kadrların informasiya mədəniyyəti səviyyəsindən asılıdır (Aliyeva, 2024). 5 iyun 2000-ci ildə Axundov adına Azərbaycan Dövlət kitabxanasının nəzdində təşkil olunmuş Tədris Mərkəzi kitabxanaçıların fasiləsiz təlim və təhsil sisteminin yüksəlməsində, texniki vərdişlərin aşılanmasında misilsiz rol oynamışdır. Tədris Mərkəzində müasir oxucuların tələblərinə cavab verən, yeni texnologiya ilə işləmək vərdişləri olan, internetdə axtarış, sorğu apara bilən, ingilis dilini orta səviyyədə bilən kitabxanaçı kadrlar hazırlanmışdır. İlk məqsəd istər milli, istərsə də ölkə kitabxanaçılarına xarici ölkə kitabxanalarının qabaqcıl iş təcrübəsini aşılamaq, bu təcrübəni yerlərdə tətbiq etməkdən ibarət idi. Bütün bu məqsədlərə çatmaq üçün trener-kitabxanaçılar zamanın tələblərindən irəli gələn, nəzəri bilikləri verən və əməli vərdişləri aşılayan kompleks proqram işləyib hazırlayır. “Müasir kitabxana və onun vəzifələri” adlanan bu proqram ilk növbədə şəhər kitabxanalarının aparıcı mütəxəssisləri üçün nəzərdə tutulmuşdu. Proqram çərçivəsində “Kitabxana menecmenti”,

“Kitabxanaların büdcədənkənar maliyyələşdirmə yolları”, “MARC formatı və onun əhəmiyyəti”, USMARC, UNIMARC formatlarını açıqlayan “Kataloqlaşdırma və kataloq”, “Kataloqlaşdırma və təsnifləşdirmə” və “Beynəlxalq kitabxana əməkdaşlığı” kimi fənnlər əhatə olunmuşdur. Bir qədər sonra çoxsaylı region kitabxanalarının müraciətlərini nəzərə alaraq Dövlət Kitabxanasının Tədris mərkəzinin səyyar qrupu respublikanın 14 rayonunda bu treninqləri təşkil edərək region kitabxanaçılarını kitabxanaların modernləşdirilməsi yolları ilə, müasir kitabxana qarşısında duran vəzifələrlə, iş təcrübəsində mövcud olmayan müasir və təcrübi yeniliklərlə tanış edir (Milli kitabxana, 2025). Keçirilən kursların nəticəsi kimi tezliklə region kitabxanaları Bakıda fəaliyyət göstərən donor təşkilatları ilə əlaqə yaradaraq müsabiqələrdə iştirak edir, qrant müqavilələrinə imza ataraq kitabxanaya texniki avadanlıqlar (kompüter, skaner, printer və s.) əldə edirlər. Tədris mərkəzində keçirilən treninqlərə və seminarlara olan tələbatın artması Dövlət Kitabxanası qarşısında mütəmadi olaraq tərtib olunan proqramları yenidən işləmək, elmi proqnozlar əsasında ixtisasın, sənətin gələcək inkişaf perspektivlərinə əsaslanaraq tərtibi zərurətini yaradır. Respublikada kitabxana işçilərinin fasiləsiz təhsil sistemində və xüsusən ixtisasartırma prosesində metodik mərkəzlərin iştirakı ilə bir mühüm məsələni də qeyd etmək lazımdır ki, qloballaşma şəraitində dünya ölkələri ilə əlaqələrinin genişlənməsi əlverişli imkanlar yaratmışdır. Bu baxımdan hazırda kitabxana işçilərinin ixtisasartırma prosesində bir tərəfdən dünya təcrübəsini öyrənmək, digər tərəfdən isə bu prosesə inkişaf etmiş xarici ölkələrin mütəxəssislərini cəlb etmək zərurəti meydana çıxır. 2024-cü ildə respublikanın digər bölgələrindəki kitabxana əməkdaşlarına onlayn metodik xidmət işini daha operativ və qrup halında həyata keçirmək məqsədilə yaradılmış “REGİONLARLA İŞ” adlı onlayn qrupuna 236 nəfər kitabxana əməkdaşı üzv olub. Qrupda onları maraqlandıran mövzular ətrafında metodik tövsiyələr verilib. Qrup vasitəsilə 400-dən çox sorğu ətrafında metodik köməklik edilib. Eyni zamanda, MKS-lərə şöbənin elektron ünvanı və kitabxananın saytında aktiv olan “ONLAYN METODİKİ XİDMƏT” bölməsi vasitəsilə 50-dən çox sorğu ətrafında metodik köməklik göstərilib (Milli kitabxana, 2025). 2024-cü ildə Milli Kitabxana Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan respublika kitabxanaları və MKS-ə tətbiq edilən Koha AKİS-in tətbiqi istiqamətində əhəmiyyətli işlər görüb. Koha Avtomatlaşdırılmış Kitabxana İdarəetmə Sisteminin tətbiqi məqsədilə Azərbaycan Milli Kitabxanasının Treninq Mərkəzində Milli Kitabxananın mütəxəssisləri tərəfindən təşkil olunan treninqlərdə əsasən “İstifadəçilər” modulunda istifadəçilərin fərqli parametrlər və kitabxanalar üzrə axtarışı, yeni istifadəçi qeydiyyatı, istifadəçi məlumatlarının yenilənməsi prosesləri, “Kitab Verilişi” modulunda ədəbiyyatın istifadəçiyə verilməsi, qaytarılması,

müddətinin uzadılması, rezervasiya edilməsi, rezervasiyanın ləğv edilməsi prosesləri, "OPAC - İstifadəçi interfeysi"ndə istifadəçinin qeydiyyatı, məlumatlarının yenilənməsi, ədəbiyyatın axtarışı, öncədən sifarişi, siyahıların yaradılması, nüsxənin vəziyyəti haqqında məlumat, nüsxələr haqqında şərh yazılması, qovluğun yaradılması, oxu tarixçəsinin nəzərdən keçirilməsi, axtarış tarixçəsinin saxlanılması prosesləri tədris edilib, təcrübi işlər həyata keçirilib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki kütləvi kitabxanalarda tətbiq edilən Koha Avtomatlaşdırılmış Kitabxana-İdarəetmə Sistemi ilə işin təkmilləşdirilməsi məqsədilə Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyinin Kitabxanalar və Yayımlar Baş İdarəsinin Tekniki Xidmətlər şöbəsinin müdiri Hülya Dirican, şöbənin əməkdaşları Fərhad Öztürk və İsmail Karaca Milli Kitabxanaya dəvət olunub. 2024-cü ilin 18 dekabr tarixində Milli Kitabxanada Koha Avtomatlaşdırılmış Kitabxana-İdarəetmə Sistemi ilə işin təkmilləşdirilməsi məqsədilə açılış mərasimi olmuşdur. Koha Avtomatlaşdırılmış Kitabxana-İdarəetmə Sistemi ilə işin təkmilləşdirilməsi məqsədilə Türkiyədən dəvət edilən mütəxəssislərlərin və Milli Kitabxananın iştirakı ilə Gəncə Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında, Quba Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında təlim keçirilmiş, sistemin iş vəziyyəti ilə tanış olaraq tövsiyələrini vermişlər (Milli kitabxana, 2025). Kitabxanaçılıq peşəsi üzrə fasiləsiz təhsil sistemində metodik mərkəzlərin iştirakı daha çox ixtisasartırma və kadrların yenidən hazırlanması mərhələsində özünü büruzə verir. Bu istiqamətdə böyük təcrübəyə malik olan metodiki mərkəzlər daimi kurslar həyata keçirirlər. Bu daimi kurslar Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərir. Bir məsələni qeyd etmək lazımdır ki, bu metodiki mərkəzlərin heç biri müvafiq kitabxana şəbəkəsi işçilərinin ixtisasartırma problemi ilə uzun illər məşğul olmamışdır. Buna görə də, müasir mərhələdə respublika kitabxana işçilərinin ixtisaslarının artırılması və yenidən hazırlanması prosesində metodiki mərkəzlərin mahiyyəti, məqsəd, vəzifə və formaları müvafiq prinsip və metodlar əsasında həyata keçirilir. Metodik mərkəzlərin ixitisasartırma proseslərindəki fəaliyyəti 4 səviyyədə- Kitabxanadaxili, Şəbəkədaxili, Şəbəkələrarası və Respublika səviyyəaində həyata keçirilir. Kitabxanadaxili ixtisasartırma tədbirləri müvafiq kollektivin konkret fəaliyyəti ilə sıx əlaqədardır. Bu zaman hər hansı bir kitabxananın əməkdaşlarının arzu və təklifləri nəzərə alınaraq, bu kitabxanada müvafiq bir sahədə kurslar təşkil olunur. Şəbəkədaxili səviyyədə isə bir neçə müvafiq kitabxana şəbəkəsinin respublikanın kitabxana sistemlərində həyata keçirdikləri funksiyaları nəzərə alınmaqla təşkil edilir. Şəbəkələrarası ixtisasartırma tədbirləri istifadəçilərin kitabxana-informasiya ehtiyatlarından,

istifadəçilərə xidmətlərin aktual problemlərindən, kitabxanaçılar tərəfindən nəzəri biliklərin dünya təcrübəsinə əsaslanmasına yönəldilmiş tədbirlər olmalıdır. Respublika miqyaslı ixtisasartırmada kitabxana işinin qlobal problemləri ilə əlaqədar olaraq həyata keçirilən strateji tədbirlərdir. Müasir dövrdə ixtisasartırma prosesində ən mühüm məsələlərdən biri də kitabxanaçıların oxuculara xidmət işində köhnə vərdişlərdən azad olub demokratik prinsiplərə yiyələnməsidir. Kitabxanaçıların ixtisasartırma təhsili prosesində metodik mərkəzlər tərəfindən nəzəriyyə, metodika uzunmüddətli təcrübə prosesində formalaşmış zəngin forma və üsullardan, pedaqoji metodlardan geniş istifadə etməsidir. Bu zaman təcrübi məşğələlər, praktikumlar, seminarlar, "dəyirmi masa"lar, disputlar, müsabiqələr və s. kimi təlim-tədris növlərinin həyata keçirilməsi vacib şərt kimi meydana çıxır. Eyni zamanda ali təhsilli kitabxana-informasiya mütəxəssislərinin fasiləsiz təhsilində BDU-nun «İnformasiya və sənəd menecmenti» fakültəsinin təşkilatçılığı ilə keçirilən respublika, beynəlxalq miqyaslı konfransların, elmi seminarların, ustad dərslərinin mühüm əhəmiyyətini qeyd etmək lazımdır. Belə ki, son illərdə təşkil edilmiş ustad dərslərdən; Çankırı Karatekin Universitetinin Bilgi və bəlgə yönətimi bölümünün başqanı professor Coşkun Polatın "Kitabxana kolleksiyasının menecmenti" mövzusunda, Kastamonu Universitetinin Bilgi və bəlgə yönətimi bölümünün başqanı professor Hasan Keseroğlunun "Peşə etikası" mövzusunda, Bartın Universitetinin Bilgi və bəlgə yönətimi bölümünün başqanı Ahmet Altayın "İnformasiya cəmiyyətinə inteqrasiyada xalq kitabxanalarının rolu" mövzusunda ustad dərsi (2024, 29 noyabr); 2025-ci ildə filologiya elmləri doktoru, professor Cahangir Məmmədlinin "Dünyagörüşünün formalaşması və müasir informasiya mühiti" mövzusunda ustad dərsi keçirilmişdir. Bakı Dövlət Universitetinin (BDU) İnformasiya və sənəd menecmenti fakültəsi, Azərbaycan Milli Kitabxanası, Türkiyənin Cümhurbaşkanlığı Millət Kitabxanası, Bartın, Çankırı Karatekin, Kastamonu və İstanbul 29 Mayıs universitetlərinin İnformasiya və sənəd menecmenti bölümlərinin birgə təşkilatçılığı ilə Türkiyədə keçirilən 61-ci "Kitabxana həftəsi" tədbirləri çərçivəsində elmi-praktik konfrans təşkil olunmuşdur. "Kitabxana həftəsi"nin məqsədi cəmiyyətdə kitabxanaçılıq təhsilinə, kitabxana-informasiya fəaliyyətinə marağı artırmaq, bu istiqamətdə daha yaxşı nəticələr əldə etmək idi. 27 mart – Azərbaycan Respublikasında "Elm günü" ilə bağlı silsilə tədbirlər çərçivəsində elmi seminarlar keçirilmişdir ki, bunlardan: BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti Pərviz Kaziminin "Elmin inkişafı Azərbaycanda dövlət siyasətinin prioriteti kimi" mövzusunda (2025, 10 mart); Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov «Sənəd menecmenti üzrə tədqiqatların elmmetrik təhlili» (2025, 5 mart), Kitabxanaşünaslıq kafedrasının müəllimi f.ü.f.d. Sahibə Əliyevanın «Oxucu məmnunluğu

probleminin sosial-fəlsəfi mahiyyəti" mövzusunda elmi seminarda məruzələr etmişdilər (2025). Qeyd etdiyimiz kimi müasir dövrdə kompetentli kitabxana-informasiya mütəxəsislərinin fasiləsiz təhsili prosesi peşə təhsili pillələrinə müvafiq olaraq formal, qeyri-formal və informal yolla gerçəkləşir.

**Nəticə**

Kitabxanaçı kadrların peşəyönümlü fasiləsiz təhsilinin təşkili və təkmilləşməsində ixtisasyönümlü dərslik və dərs vəsaitləri, elmi-jurnallar da əhəmiyyət kəsb edir. Respublikada dərc olunan «Kitabxanaşünaslıq və biblioqrafiya», «Kitabşünaslıq və redaktor sənəti» elmi-nəzəri və təcrübi jurnalları, Rusiyada «Научные технические библиотеки», «Библиотековедение», «Библиотечное дело», «The Journal of Academic Librarianship», «Journal of Librarianship and Information Science», «The Electronic Library» və digər jurnalları qeyd etmək olar. Kitabxana –informasiya mütəxəssislərinin fasiləsiz təhsil prosesinin təşkili formal, qeyri-formal və informal yolla həyata keçirilməli və cəmiyyətdə baş verən dəyişikliklərə, modrnləşməyə açıq olmalıdır. Eyni zamanda yüksək kompetensiyalı kadrlar hazırlanmasında təhsilin keyfiyyətinin artırılması, tədris proqramlarının yenilənməsi, nəzəri biliklərlə yanaşı təcrübi fəaliyyətə geniş yer verilməsi əsas şərtlərdəndir. Kitabxana-informasiya təhsilinin keyfiyyətinin artırılması cəmiyyətin inkişaf dinamikasına adekvatlığı ilə deyil, eyni zamanda onun nə dərəcədə müasir sosial, elektron və metabilik texnologiyalarına sintezi ilə və yüksək kompetensiyalı professor-müəllim heyətinin mövcudluğu ilə dəyərləndirilir.

**Ədəbiyyat**

Alieva, A. (2020). Distance education information supply and modern problems. Hileya, 157 (6-9), 67-70.

Aliyeva, A. (2024). The Formation of Favorable Information Environment in Libraries. *Akademik Tarih ve Düşünce Dergisi, 11*(4), 2311-2319. https://doi.org/10.46868/atdd.2024.707

Aliyeva, A. S. (2023). obrazovanıye kak osnovnoye trebovanıye ustoychıvogo razvıtıya ınformatsıı. *Vremya nauki,* (12 (119), 33–35. (In Russian).

Hacıyeva, M. (2016). Azərbaycanda Kitabxanaçı Kadrların Fasiləsiz Təhsilinin Təşkilində Milli Kitabxananın Rolu. *"E-kitabxanaların formalaşması problemləri" respublika elmi-praktiki konfransı.* (s. 92-94). Bakı.

Oqlu, K. P. F., & Qurbanov, A. (2021). Factors influencing reader satisfaction and quality of service in modern libraries. *South Asian Journal of Social Studies and Economics*, *11* (3), 15-20.

Rashad, G., & Parviz, K. (2023). University libraries as centers for scientific communications (according to the experience of higher educational institutions of the Republic of Azerbaijan). *Ismayilov, NI, &* Khalafova, S. A. (2022). The role of digital marketing in the management of library information resources. *Academic review, 2* (57), 194-202.

Xələfov, A. A. (2019) Azərbaycanda ali kitabxanaçılıq təhsili və kitabxanaşünaslıq elmi məktəbinin formalaşmasında Bakı Dövlət Universitetinin rolu. *Kitabxanaşünaslıq və informasiya, 1,* (28), 33-83.

Millikitabxana. 2025, https://www.millikitabxana.az/